ƏDLİYYƏ

881 ÇAĞRI MƏRKƏZİ

www.justice.gov.az

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı

№ 07 (268) iyul 2026

# Prezident İlham Əliyev Türkiyənin ədliyyə nazirini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 2-də Türkiyə Respublikasının ədliyyə naziri Akın Gürleki qəbul edib.**

Qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən Akın Gürlek Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Qonaq ortaq tarixə, mədəniyyətə və qardaşlığa əsaslanan əlaqələrimizin Azərbaycan və Türkiyə prezidentləri arasında mövcud olan səmimi münasibətlər sayəsində daha da inkişaf etdiyini vurğuladı.

Türkiyənin ədliyyə naziri dövlətimizin başçısının güclü liderliyi ilə ölkəmizin inkişaf etdiyini deyərək, bu xüsusda Azərbaycanın iqtisadi tərəqqisinə, beynəlxalq nüfuzunun daha da artmasına və tarixi Qarabağ Zəfərinə toxundu.

Akın Gürlek, həmçinin Azərbaycanın bölgədə enerji, bağlantılar, o cümlədən Zəngəzur dəhlizi kimi strateji layihələrin həyata keçirilməsində önəmli rolunu vurğuladı və Türkiyənin bundan sonra da ölkəmizin yanında olacağını dedi.

Söhbət zamanı bütün sahələri əhatə edən Azərbaycan-Türkiyə qardaşlıq və müttəfiqlik münasibətlərinin uğurla



inkişaf etdiyi məmnunluqla vurğulandı. Ölkələrimizin Ədliyyə nazirlikləri arasında səmərəli tərəfdaşlığın qurulduğu bildirilərək, əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.





# Ədliyyə naziri Fərid Əhmədov Türkiyənin ədliyyə naziri Akın Gürlek ilə görüşüb

**Azərbaycan Respublikasının ədliyyə naziri Fərid Əhmədov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının ədliyyə naziri Akın Gürlek ilə görüşüb.**

Qonağı salamlayan nazir Fərid Əhmədov Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb, ölkələrimiz arasında qarşılıqlı etimada və dəstəyə əsaslanan əməkdaşlığın əhəmiyyətini qeyd edib.

Görüş zamanı Azərbaycan ilə Türkiyə arasında ədliyyə sahəsində əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Son illər nazirliklər arasında həyata keçirilən qarşılıqlı sə-



fərlərin, imzalanmış sənədlərin və birgə fəaliyyət mexanizmlərinin əlaqələrin daha da möhkəmlənməsinə mühüm töhfə verdiyi bildirilib.

Hüquqi yardım, penitensiar və probasiya sistemləri, rəqəmsal həllərin tətbiqi, təcrübə mübadiləsi və kadr hazırlığı istiqamətlərində əməkdaşlığın genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Görüşdə, həmçinin Türk Dövlətləri Təşkilatı çərçivəsində həyata keçirilən birgə layihələrin və çoxtərəfli əməkdaşlıq mexanizmlərinin hüquq sahəsində inteqrasiyanın gücləndirilməsinə töhfə verdiyi qeyd olunub.

Tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Ədliyyə naziri Pakistan İslam Respublikasının hüquq və ədliyyə üzrə dövlət naziri ilə görüşüb

**Azərbaycan Respublikasının ədliyyə naziri Fərid Əhmədov Pakistan İslam Respublikasının hüquq və ədliyyə üzrə dövlət naziri Aqil Malikin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Görüşdə Azərbaycan-Pakistan əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi vurğulanaraq, qarşılıqlı səfərlərin və yüksək səviyyəli görüşlərin ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsində mühüm rol oynadığı bildirilib.

Ədliyyə orqanları arasında əməkdaşlığın inkişafına xidmət edən Əməkdaşlıq Memorandumu və Əməkdaşlıq Proqramının icrası çərçivəsində bir sıra birgə tədbirlərin həyata keçirildiyi və bu istiqamətdə fəaliyyətin davam etdirildiyi qeyd olunub.

Bu çərçivədə Bakıda keçiriləcək təlimin iki ölkənin ədliyyə orqanları arasında təcrübə və bilik mübadiləsinin genişləndirilməsi, eləcə də peşəkar əlaqələrin daha da inkişaf etdirilməsi baxımından əhəmiyyəti vurğulanıb.

Eyni zamanda, may ayında İslamabadda keçirilmiş təlimin yüksək səviyyədə təşkilinə görə Pakistan tərəfinə təşəkkür ifadə edilib, cari ilin oktyabr ayında isə İslamabadda daha bir təlimin keçirilməsinin planlaşdırıldığı bildirilib.

Birgə təlimlərin və digər tədbirlərin iki ölkənin ədliyyə orqanları arasında əməkdaşlığın daha da genişlənməsinə töhfə verəcəyinə əminlik ifadə olunub.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Aqil Malik Azərbaycandan olan hakimlər, ədliyyə və məhkəmə işçiləri üçün Bakıda keçiriləcək təlimdə iştirak etmək məqsədilə ölkəmizə səfər edib.

# Azərbaycan və Pakistan arasında əməkdaşlıq çərçivəsində Bakıda beynəlxalq təlim keçirilib





**Ədliyyə Nazirliyinin əməkdaşları, hakimlər və məhkəmə işçiləri Bakı şəhərində keçirilən "The Judicial Crafting: Executive Judicial Training Programme" ("Hakim Peşəkarlığı: Rəhbər Səviyyəli Məhkəmə Təlim Proqramı") adlı beynəlxalq təlim proqramında iştirak ediblər.**



Təlim Azərbaycan Respublikası Ədliyyə Nazirliyi ilə Pakistan İslam Respublikasının Hüquq və Ədliyyə Nazirliyi arasında imzalanmış Əməkdaşlıq Proqramı çərçivəsində təşkil olunub. Proqramın keçirilməsi barədə razılıq Azərbaycan Respublikasının ədliyyə naziri Fərid Əhmədovun cari ilin 14-15 may tarixlərində Pakistan İslam Respublikasına səfəri zamanı əldə olunub. Təşəbbüs iki ölkə arasında ədliyyə sahəsində əməkdaşlığın daha da genişləndirilməsinə, eləcə də peşəkar təcrübə mübadiləsinin inkişafına xidmət edir.

Təlimdə Pakistan İslam Respublikasının hüquq və ədliyyə üzrə dövlət naziri Aqil Malikin rəhbərlik etdiyi nümayəndə heyətinin üzvləri, o cümlədən Pakistan Ali Məhkəməsinin hakimləri, Beynəlxalq Mediasiya və Arbitraj Mərkəzinin vəzifəli şəxsləri, İslam Əməkdaşlıq Təşkilatının Arbitraj Mərkəzinin baş katibi və digər ekspertlər tərəfindən təqdimatlar keçirilib, iştirakçılarla fikir mübadiləsi aparılıb.

Proqramda Ədliyyə Nazirliyinin əməkdaşları, hakimlər və məhkəmə işçiləri daxil olmaqla 20-dən çox nümayəndə iştirak edib.

Qeyd edək ki, əməkdaşlıq proqramı çərçivəsində növbəti beynəlxalq təlimin cari ilin oktyabr ayında Pakistan İslam Respublikasında keçirilməsi planlaşdırılır.

Təlim proqramı iki ölkənin ədliyyə və məhkəmə orqanları arasında bilik və təcrübə mübadiləsinin genişləndirilməsi, peşəkar əlaqələrin möhkəmləndirilməsi və institusional əməkdaşlığın inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

# Ədliyyə nazirinin müavini Avropa Şurasının İnsan Hüquqları və Hüququn Aliliyi üzrə Baş direktoru ilə görüşüb

**Ədliyyə nazirinin müavini Toğrul Hüseynov Avropa Şurasının İnsan Hüquqları və Hüququn Aliliyi üzrə Baş direktoru Canluka Espozito ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında hüquq və ədliyyə sahəsində uğurla həyata keçirilən uzunmüddətli əməkdaşlıq vurğulanıb. Avropa Şurasının müvafiq tədbirlər planları çərçivəsində həyata keçirilən layihələrin ölkədə aparılan hüquqi və institusional islahatlara töhfə verdiyi qeyd edilib. Həmçinin məhkəmə ekspertizası, probasiya, məhkəmə qərarlarının icrası, hüquqi sahədə təhsil və elmi tədqiqat istiqamətləri üzrə əməkdaşlığın prioritet olduğu diqqətə çatdırılıb.

Tərəflər Avropa Şurasının müxtəlif institutları və komitələri ilə qarşılıqlı fəaliyyət, beynəlxalq hüquqi əməkdaşlıq sahəsində əldə olunan nəticələr, eləcə də gələcək əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparıblar.



# Ədliyyə naziri Balakən rayonunda vətəndaşları qəbul edib





**Ədliyyə naziri Fərid Əhmədov 3 iyul tarixində Balakən rayonunda vətəndaşları qəbul edib.**

Qəbuldan əvvəl nazir Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Qəbulda Balakən, Zaqatala, Qax, Şəki, Oğuz və Qəbələ rayonlarından ümumilikdə 55 vətəndaşın ədliyyə fəaliyyəti ilə, eləcə də ədliyyə orqanlarında işə qəbulla bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı Nazirliyin aidiyyəti struktur qurumlarının rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, qəbul mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilib.

# Bölgələrdə yaşayan vətəndaşlar üçün videoqəbullar keçirilib



**Ədliyyə Nazirliyi vətəndaş məmnunluğunun artırılması, ədliyyə orqanlarına əlçatanlığın təmin olunması, regionlarda yaşayan vətəndaşların müraciətlərinə operativ və yerində baxılması məqsədilə mütəmadi olaraq videoqəbullar təşkil edir.**

Nazirliyin Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsi və regional ədliyyə idarələrinin təşkilatçılığı ilə iyulun 22-də ədliyyə



nazirinin müavini - Penitensiar xidmətin rəisi Mirsaleh Seyidov tərəfindən Göyçay, Xaçmaz, Gəncə, Bərdə, Şirvan və Lənkəran regional ədliyyə idarələri ilə birlikdə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların, iyulun 28-də ədliyyə nazirinin müavini Mübariz Əhmədov tərəfindən Xaçmaz, Sumqayıt, Gəncə, İmişli, Bərdə, Şəki və Göyçay regional ədliyyə idarələri ilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların, iyulun 30-da isə ədliyyə nazirinin müavini Abiddin Hüseynov tərəfindən İmişli, Sumqayıt, Bərdə, Lənkəran, Gəncə və Şirvan regional ədliyyə idarələri ilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videoqəbullak keçirilib.

Videoqəbullarda penitensiar sahə ilə bağlı qəbulda iştirak etmək üçün müraciət edən 13 vətəndaşın, İcra xidmətinin, Bələdiyyələrlə iş baş idarəsinin, Cəzaların icrasına nəzarət baş idarəsinin və İstintaq idarəsinin fəaliyyət istiqamətləri ilə bağlı 16 vətəndaşın, Notariat, qeydiyyat və reyestr baş idarəsinin, Məhkəmə Ekspertizası Mərkəzinin və Tibb baş idarəsinin





fəaliyyət istiqamətləri ilə bağlı 9 vətəndaşın müraciəti dinlənilib, vətəndaşlara qanunvericiliyin tələbləri ətraflı izah olunub və qəbul zamanı təqdim edilmiş müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.

Regionlarda yaşayan vətəndaşlar videoqəbullarda iştirak etmək üçün qebul@justice.gov.az elektron poçt ünvanına və ya Nazirliyin regional ədliyyə idarələrinə müraciət etməklə qəbula yazıla bilərlər.







# Dövlət icra məmuru vəzifəsinə qəbulla bağlı test imtahanı keçirilib

**İyulun 12-də Ədliyyə Nazirliyinin Müsabiqə Komissiyası Dövlət İmtahan Mərkəzi ilə birlikdə dövlət icra məmuru vəzifəsinə qəbulla bağlı test imtahanı keçirib.**

İmtahanda namizədlərə icra məmurunun fəaliyyətində tətbiq olunan qanunvericiliyə dair 60, məntiqi nəticələr çıxarmaq qabiliyyətini, ümumi bilik səviyyəsini, dünyagörüşünü və ünsiyyət bacarıqlarını müəyyən edən 40 sual olmaqla, ümumilikdə 100 sual təqdim edilib. Qanunvericilik üzrə hər sual 1 balla, məntiqi nəticələr çıxarmaq qabiliyyəti, ümumi bilik səviyyəsi, dünyagörüşü və ünsiyyət bacarıqları üzrə hər sual 0.5 balla qiymətləndirilib, keçid balı isə 55 olub.





Bakı və regionlar üzrə imtahanda iştirak edən 523 namizəddən 251 nəfəri, Naxçıvan Muxtar Respublikası üzrə imtahanda iştirak edən 104 namizəddən 52 nəfəri uğur qazanaraq növbəti mərhələdə iştirak şansı qazanıb. Namizədlər test imtahanını yekunlaşdırdıqdan sonra topladıqları balla tanış olmaq imkanı əldə ediblər.

Müsabiqənin test imtahanı mərhələsindən müvəffəqiyyətlə keçən, habelə həmin imtahandan azad olunmuş və müsahibədə iştirak etmək istəyən şəxslər "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində dövlət icra məmurlarının qulluğa qəbulu ilə bağlı müsabiqənin və icbari təlimin keçirilməsi Qaydası"nın 2.7-ci bəndində nəzərdə tutulmuş sənədləri 15 iş günü ərzində, saat 9:00-dan 18:00-dək Ədliyyə Nazirliyinin İnsan resursları idarəsinə (Bakı şəhəri, İnşaatçılar prospekti 1) təqdim etməlidirlər.

Təqdim etdiyi sənədlərə görə "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanunla müəyyən edilmiş tələblərə cavab verən namizədlər müsabiqənin ikinci mərhələsinə - söhbətə buraxılacaqlar.

İmtahan nəticələri ilə bağlı Apellyasiya Komissiyası 13-15 iyul tarixlərində saat 14:00-dan 17:00-dək Dövlət İmtahan Mərkəzinin əsas inzibati binasında fəaliyyət göstərəcək (Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Akademik Həsən Əliyev küçəsi, 299).

# Korrupsiya cinayətləri ilə mübarizədə məhkəmə ekspertizasının roluna həsr olunmuş elmi-praktiki seminar keçirilib

**Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi və Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə "Korrupsiya cinayətləri ilə mübarizədə məhkəmə ekspertizasının rolu" mövzusunda elmi-praktiki seminar keçirilib.**

"Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" çərçivəsində təşkil olunan tədbirdə korrupsiya cinayətlərinin araşdırılmasında məhkəmə ekspertizasının rolu, bu sahədə müasir çağırışlar və digər aktual məsələlər müzakirə edilib.

Seminarda "Korrupsiyaya qarşı mübarizənin cinayət-hüquqi və kriminoloji aspektləri", "Korrupsiya cinayətlərində yeni çağırışlar: nüfuz alveri", "Korrupsiya cinayətlərində sənədlərin həqiqiliyinin müəyyən edilməsində ekspertizanın rolu", "Korrupsiya cinayətlərinin araşdırılmasında rəqəmsal sübutların əldə olunması və tədqiqi", "Korrupsiya cinayətlərinin araşdırılmasında məhkəmə-mühasibat ekspertizasının həll etdiyi məsələlər" və "Korrupsiya cinayətləri üzrə işlərdə fonoskopik və linqvistik ekspertizaların rolu" mövzularında təqdimatlar dinlənilib.



Tədbirdə Məhkəmə Ekspertizası Mərkəzi, Ədliyyə Akademiyası, Azərbaycan Respublikasının Baş Prokurorluğu, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Bakı Dövlət Universiteti, Milli Aviasiya Akademiyası, Daxili İşlər Nazirliyinin Polis Akademiyası, Vəkillər Kollegiyası və digər dövlət qurumlarının nümayəndələri, hüquqşünas alimlər və məhkəmə ekspertləri iştirak ediblər.

Seminarın əsas məqsədi korrupsiya cinayətlərinin aşkar edilməsi, araşdırılması və sübuta yetirilməsi prosesində məhkəmə ekspertizasının rolunu elmi-praktiki baxımdan müzakirə etmək, bu sahədə formalaşmış müsbət təcrübəni bölüşmək, aidiyyəti qurumlar arasında əməkdaşlığın və səmərəli fikir mübadiləsinin daha da inkişafına töhfə vermək olub.

Tədbir çərçivəsində, həmçinin "Korrupsiyaya qarşı mübarizənin cinayət-hüquqi və kriminoloji aspektləri" adlı elmi-metodiki vəsaitin təqdimatı keçirilib.

# Bələdiyyələr üçün növbəti metodik vəsait hazırlanıb

**Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrin fəaliyyətinin qanunauyğun təşkilinin təmin edilməsi istiqamətində metodoloji dəstəyin gücləndirilməsi məqsədilə növbəti tədbir həyata keçirilib.**

Nazirliyin Bələdiyyələrlə iş baş idarəsi tərəfindən "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununun 49-1-ci maddəsinə uyğun olaraq bələdiyyələrə metodoloji yardım göstərilməsi çərçivəsində "Bələdiyyələrin statusu və onların fəaliyyətinə inzibati nəzarət" adlı metodik vəsait hazırlanıb.

Metodik vəsaitdə bələdiyyələrin yerli özünüidarəetmə institutu kimi hüquqi statusu və fəaliyyət istiqamətləri, bu sahəni tənzimləyən normativ hüquqi baza, habelə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin hüquqi əsasları və həyata keçirilməsi qaydaları ətraflı izah olunub.

Vəsait bələdiyyə üzvləri və qulluqçularının hüquqi biliklərinin artırılmasına, bələdiyyələrin fəaliyyətinin qanunauyğun təşkilinə metodoloji dəstəyin göstərilməsinə və yerli özünüidarəetmə sahəsində səmərəliliyin yüksəldilməsinə xidmət edir.

Bələdiyyələrə metodik vəsaitlə yaxından tanış olmaları və burada əks olunan qanunvericilik tələblərini gələcək fəaliyyətlərində rəhbər tutmaları tövsiyə edilir.

Metodik vəsaitlə linkə (https://justice.gov.az/storage/01KX0XAQTN3G45ZXX4C4XBRT3B.pdf) keçid edərək tanış olmaq mümkündür.



# Ədliyyə Nazirliyinin daha iki xidməti "mygov" platformasına inteqrasiya edilib

**"Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"na uyğun olaraq vətəndaşlara göstərilən rəqəmsal xidmətlərin vahid platforma üzərindən əlçatanlığının artırılması məqsədilə Ədliyyə Nazirliyinin daha iki xidməti "mygov" platformasına inteqrasiya edilib.**

Belə ki, "Vəkilə verilən etibarnamənin təsdiq edilməsi" və "Bank xidmətlərindən istifadə edilməsi ilə bağlı etibarnamənin verilməsi" xidmətlərini həm my.gov.az portalı, həm də "mygov" mobil tətbiqi vasitəsilə istifadə etmək mümkündür.

"Bank xidmətlərindən istifadə edilməsi ilə bağlı etibarnamənin verilməsi" xidməti vasitəsilə vətəndaş digər şəxsə öz adından bank əməliyyatlarını (hesab açmaq, hesabdakı vəsaitləri nağdlaşdırmaq, köçürmələr etmək və s.) həyata keçirmək səlahiyyəti




verə bilər.

"Vəkilə verilən etibarnamənin təsdiq edilməsi" xidməti isə bir şəxsin vəkilə onun adından hüquqi məsələlərin həlli, məhkəmədə təmsilçilik və digər hüquqi əməliyyatların həyata keçirilməsi üçün verdiyi səlahiyyətləri təsdiq etməyə imkan verir.

Xidmətlərdən istifadə etmək üçün vətəndaş "mygov" tətbiqində "Xidmətlər" bölməsinə daxil olur. "Bank etibarnaməsi" üçün "Məşğulluq", "Vəkil etibarnaməsi" üçün isə "Şəxsi" kateqoriyasından müvafiq xidmət seçilir. Daha sonra tələb olunan məlumatlar daxil edilərək etibarnamə müvafiq şəxsə təqdim edilir.

İstifadəçilər müraciətin statusunu "Müraciət tarixçəsi" bölməsindən izləyə və sənəd hazır olduqdan sonra ona çıxış əldə edə bilirlər.

Qeyd edək ki, sözügedən xidmətlərlə yanaşı, Ədliyyə Nazirliyinin müxtəlif həyat hadisələri üzrə 5, notariat fəaliyyəti ilə bağlı 6 xidməti, eləcə də tərcümə və fiziki şəxslərə aid icra işləri barədə məlumatların təqdim edilməsi xidmətləri də "mygov" platformasına inteqrasiya olunub.

# Beynəlxalq axtarışda olan şəxslər tutularaq Azərbaycana ekstradisiya ediliblər

**Ədliyyə Nazirliyi tərəfindən xarici dövlətlərin aidiyyəti qurumları ilə beynəlxalq axtarışa verilmiş, cinayət törədilməsində ittiham olunan şəxslərin tutularaq ölkəmizə gətirilməsi ilə bağlı səmərəli əməkdaşlıq tədbirləri davam etdirilir.**

İnterpolun Azərbaycan Respublikasındakı Milli Mərkəzi Bürosu tərəfindən beynəlxalq axtarışa verilən və yerləri Serbiya və Monteneqroda müəyyən edilən iki şəxsin iyulun 19-da və 29-da Nazirlik tərəfindən Azərbaycana ekstradisiyası həyata keçirilib.

Belə ki, 2023-cü ildə tamah niyyəti ilə etibardan sui-istifadə etmə və aldatma yolu ilə özgənin əmlakını ələ keçirmək məqsədilə müxtəlif vaxtlarda zərərçəkmiş şəxsə yalan vədlər verməklə ona külli miqdarda, yəni 90.869,964 manat məbləğində ziyan vurmaqla dələduzluq etməkdə (Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178.3.2-ci maddəsi) ittiham edilmiş Azərbaycan Respublikasının vətəndaşı Məmmədov Səbuhi Elburus oğlunun yeri Serbiya Respublikasında müəyyən olunub və o, həbs edilib.

2024-cü ildə tamah niyyəti ilə etibardan sui-istifadə etmə və aldatma yolu ilə özgənin əmlakını ələ keçirmək məqsədilə müxtəlif vaxtlarda zərərçəkmiş şəxsə yalan vədlər verməklə ona xeyli miqdarda ziyan vurmaqla dələduzluq etməkdə (Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178.2.4-cü maddəsi) ittiham edilmiş Azərbaycan Respublikasının vətəndaşı Süleymanov Hidayət Nemət oğlunun yeri isə Monteneqroda müəyyən olunub və o, həbs edilib.

Baş Prokurorluğun sorğusundan, habelə aparılan danışıqlardan sonra həmin şəxslərin Azərbaycana ekstradisiyası ilə bağlı razılıq əldə olunub. Bu, dövlətimizin beynəlxalq nüfuzunu, Serbiya və Monteneqronun ölkəmiz üçün etibarlı tərəfdaş olmasını bir daha təsdiqləyir.

Ədliyyə Nazirliyinin Beynəlxalq əməkdaşlıq baş idarəsinin və Nazirliyin Penitensiar xidmətinin məsul əməkdaşları tərəfindən Məmmədov Səbuhi Elburus oğlu Serbiya Respublikasının Belqrad şəhərindən, Süleymanov Hidayət Nemət oğlu isə Monteneqronun Tivat şəhərindən ölkəmizə gətirilib və məhkəmənin həbs qərarına əsasən müvafiq istintaq təcridxanasına yerləşdiriliblər.

Nazirlik tərəfindən bu sahədə lazımi tədbirlər davam etdirilir.

# QEYRİ-KOMMERSİYA TƏŞKİLATLARININ REYESTR MƏLUMATI

### "Azərbaycan Savat Federasiyası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.12.2008-ci il
**Qeydiyyat N-si:** 1108-Q25-2659
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni hüquqi ünvanı: Bakı şəhəri, Nərimanov rayonu, Əhməd Rəcəbli küçəsi, ev 3, mənzil 9, qanuni təmsilçisi Əliyev Rafiq Haxverdi oğlu olmuşdur
**Dəyişiklik:** 06.07.2026-cı il tarixdə qeydiyyata alınıb

### "Vinq Çun Federasiyası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 04.06.2018-ci il
**Qeydiyyat N-si:** 1118-Q63-3585
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Sayadov Asif Məhəmmədhənifə oğlu olmuşdur
**Dəyişiklik:** 07.07.2026-cı il tarixdə qeydiyyata alınıb

### "Yasamal-38" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti

**Qeydiyyat tarixi:** 11.07.2019-cu il
**Qeydiyyat N-si:** 1119-MM6-0134
İdarə heyətinin qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Vəliyev İmran Xəlil oğlu olmuşdur
**Dəyişiklik:** 07.07.2026-cı il tarixdə qeydiyyata alınıb

### "Sosial Dayaq" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.06.2010-cu il
**Qeydiyyat N-si:** 1110-Q32-2865
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Niftəliyeva Qərənfil Ağababa qızı olmuşdur
**Dəyişiklik:** 07.07.2026-cı il tarixdə qeydiyyata alınıb

### "Azərbaycan Tennis Federasiyası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 02.08.1995-ci il
**Qeydiyyat N-si:** 780
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni adı: "Azərbaycan Tennis və Padel Federasiyası" ictimai birliyi, qanuni təmsilçisi Ənvərli Ənvər Adil oğlu olmuşdur
**Dəyişiklik:** 08.07.2026-cı il tarixdə qeydiyyata alınıb

### Azərbaycan Ağsaqqallar Şurası

**Qeydiyyat tarixi:** 20.07.1990-cı il
**Qeydiyyat N-si:** 24
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən hazırki hüquqi ünvanı: Bakı şəhəri, Yasamal rayonu, Akademik Şəfaət Mehdiyev küçəsi 75, qanuni təmsilçisi Quliyev Eldar Allahyar oğlu olmuşdur
**Dəyişiklik:** 08.07.2026-cı il tarixdə qeydiyyata alınıb

### "İdrak" Mötədillik prinsipi üzrə Azərbaycan Beynəlxalq İslam Konqresi ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.09.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q13-2220
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Quliyev Rüfət Nizami oğlu olmuşdur
**Dəyişiklik:** 08.07.2026-cı il tarixdə qeydiyyata alınıb

### "Xətai-7" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti

**Qeydiyyat tarixi:** 22.12.2017-ci il
**Qeydiyyat N-si:** 1117-MM4-0065
İdarə heyətinin qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Bayramov Nicat Eldar oğlu olmuşdur
**Dəyişiklik:** 09.07.2026-cı il tarixdə qeydiyyata alınıb

### "Ekoloji Renesans" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.06.2005-ci il
**Qeydiyyat N-si:** 1105-Q4-1787
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Məmmədova Leyla Elşad qızı olmuşdur
**Dəyişiklik:** 09.07.2026-cı il tarixdə qeydiyyata alınıb

### "Dirçəliş İqtisadi Araşdırmalar Cəmiyyəti" ictimai birliyi

**Qeydiyyat tarixi:** 18.03.2000-ci il
**Qeydiyyat N-si:** 1270
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Sadıqov Vasib Mürşüd oğlu olmuşdur
**Dəyişiklik:** 10.07.2026-cı il tarixdə qeydiyyata alınıb

### "Gənclərin "Tənhalara Dayaq" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.05.2003-cü il
**Qeydiyyat N-si:** 1103-Q1-1443
Birliyin ümumi yığıncağın protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Seidova Xoşbəxt Mirsucəddin qızı olmuşdur
**Dəyişiklik:** 10.07.2026-cı il tarixdə qeydiyyata alınıb

### "İntellekt" Sərhədsiz Maarifçi Gənclər ictimai birliyi

**Qeydiyyat tarixi:** 26.05.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q11-2127
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Axundov Samir Samid oğlu olmuşdur
**Dəyişiklik:** 13.07.2026-cı il tarixdə qeydiyyata alınıb

### "Yasamal-13" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti

**Qeydiyyat tarixi:** 12.06.2017-ci il
**Qeydiyyat N-si:** 1117-MM4-0052
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Məmmədov Hüseyn Məmməd oğlu olmuşdur
**Dəyişiklik:** 13.07.2026-cı il tarixdə qeydiyyata alınıb

### "Atəşgah İntellektual Oyunlar Klubu" ictimai birliyi

**Qeydiyyat tarixi:** 28.02.2007-ci il
**Qeydiyyat N-si:** 1107-Q16-2325
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Yetirmişli İlkin Qurban oğlu olmuşdur
**Dəyişiklik:** 13.07.2026-cı il tarixdə qeydiyyata alınıb

### "Azərbaycan Demokratik Tələbə Gənclər Təşkilatı" ictimai birliyi

**Qeydiyyat tarixi:** 14.07.1995-ci il
**Qeydiyyat N-si:** 736
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əsgərli Asif Məmməd oğlu olmuşdur
**Dəyişiklik:** 13.07.2026-cı il tarixdə qeydə alınıb

### "Ailələrə Dayaq" xeyriyyə ictimai birliyi

**Qeydiyyat tarixi:** 25.05.2007-ci il
**Qeydiyyat N-si:** 1107-Q18-2374
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əliyeva Natəvan Əskər Əli qızı olmuşdur
**Dəyişiklik:** 13.07.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Səma və Eko" sosial-iqtisadi inkişafa yardım ictimai birliyi**

**Qeydiyyat tarixi:** 15.03.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q9-2030
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Həsənova İradə İsrafil qızı olmuşdur
**Dəyişiklik:** 13.07.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Tarix sahəsində Maarifləndirməyə Dəstək" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 07.10.2022-ci il
**Qeydiyyat N-si:** 1122-Q80-4093
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Məmmədov Kənan Həmzə oğlu olmuşdur
**Dəyişiklik:** 14.07.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Qızılbaş" Gəncləri Maarifləndirmə ictimai birliyi**

**Qeydiyyat tarixi:** 30.06.2005-ci il
**Qeydiyyat N-si:** 1105-Q4-1786
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Abbaslı Natəvan Şakir qızı olmuşdur
**Dəyişiklik:** 15.07.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Əlilliyi Olan Şəxslərin Sosial Müdafiəsinə və İnteqrasiyasına Dəstək" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 31.01.2017-ci il
**Qeydiyyat N-si:** 1117-Q58-3469
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Kərimova Səbinə Aqil qızı olmuşdur
**Dəyişiklik:** 15.07.2026-cı il tarixdə qeydiyyata alınıb

**Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası**

**Qeydiyyat tarixi:** 31.01.1996-cı il
**Qeydiyyat N-si:** 794
Konfransın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Hacıbəyli Rafael Siyavuş oğlu olmuşdur
**Dəyişiklik:** 15.07.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Sadiq Dost" Cins İtlərin Yetişdirilməsi Mərkəzi ictimai birliyi**

**Qeydiyyat tarixi:** 04.11.2025-ci il
**Qeydiyyat N-si:** 1125-Q85-4350
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Səlimzadə Fidan Əflatun qızı olmuşdur
**Dəyişiklik:** 15.07.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Bakı Tennis Akademiyası" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 30.06.2005-ci il
**Qeydiyyat N-si:** 1105-Q5-1817
Birliyin ümumi yığıncağın protokolu və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Qocayev Mehman Alı oğlu olmuşdur
**Dəyişiklik:** 15.07.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Nizami Gəncəvi Beynəlxalq Mərkəzi" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 30.06.2015-ci il
**Qeydiyyat N-si:** 1115-Q52-3333
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Əliyev Rza Taleh oğlu olmuşdur
**Dəyişiklik:** 16.07.2026-cı il tarixdə qeydə alınıb

**"Yasamal-40" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti**

**Qeydiyyat tarixi:** 02.09.2019-cu il
**Qeydiyyat N-si:** 1119-MM6-0140
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Umudov Umud Əliş oğlu olmuşdur
**Dəyişiklik:** 16.07.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Eşitmə və Nitq Məhdudiyyətli Şəxslərə Sosial Yardım" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 25.08.2016-cı il
**Qeydiyyat N-si:** 1116-Q55-3395
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Abdulova Cəmilə Çingiz qızı olmuşdur
**Dəyişiklik:** 17.07.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Türkdilli dövlətlərin nevrologiya cəmiyyəti" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 26.12.2019-cu il
**Qeydiyyat N-si:** 1119-Q71-3788
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Şirəliyeva Rəna Kazım qızı olmuşdur
**Dəyişiklik:** 17.07.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Veteran tankçılar" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 31.10.2019-cu il
**Qeydiyyat N-si:** 1119-Q70-3756
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əzimov Hacıbala Məmmədağa oğlu olmuşdur
**Dəyişiklik:** 20.07.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Bacarıqlı Əllər Dünyası" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 20.08.2009-cu il
**Qeydiyyat N-si:** 1109-Q28-2768
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Məmmədova Azadə Paşa qızı olmuşdur
**Dəyişiklik:** 20.07.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Qadın və Gənc Ailələrin Sosial İnkişafı" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 29.12.2010-cu il
**Qeydiyyat N-si:** 1110-Q34-2919
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Cavadova Tünzalə Vaqif qızı olmuşdur
**Dəyişiklik:** 21.07.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Gənclərin İntellektual İnkişaf Mərkəzi" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 29.09.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q13-2214
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Səmədova Şükufə Ağa Asəf qızı olmuşdur
**Dəyişiklik:** 21.07.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Gənclərin İntellektual İnkişaf Mərkəzi" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 29.09.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q13-2214
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Səmədova Şükufə Ağa Asəf qızı olmuşdur
**Dəyişiklik:** 21.07.2026-cı il tarixdə qeydiyyata alınıb

**Azərbaycan Gömrük İşçiləri Həmkarlar İttifaqı Birliyi**

**Qeydiyyat tarixi:** 28.09.2018-ci il
**Qeydiyyat N-si:** 1118-Q64-3619
Məclisin qərarı və digər sənədlərə əsasən hazırki hüquqi ünvanı: Bakı şəhəri, Yasamal rayonu, İnşaatçılar prospekti 2, hazırki məqsədi: Azərbaycan Respublikası gömrük orqanlarının işçilərinin, gömrük orqanlarının təhsil müəssisələrində təhsil alan və gömrük orqanlarında xidmətinə pensiya almaq hüququ ilə xitam verilmiş şəxslərin (bundan sonra-üzv) əmək, sosial və iqtisadi hüquqlarını qorumaq və s. qanuni təmsilçisi Namazov Rövşən Siyafiq oğlu olmuşdur
**Dəyişiklik:** 21.07.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Partnyor" elmin inkişafına dəstək ictimai birliyi**

**Qeydiyyat tarixi:** 29.02.2012-ci il
**Qeydiyyat N-si:** 1112-Q39-3024
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Axundov Abul Nəriman oğlu olmuşdur
**Dəyişiklik:** 22.07.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Azərbaycan Şotokan Karatedo Federasiyası" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 10.09.1991-ci il
**Qeydiyyat N-si:** 93
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən hazırki hüquqi ünvanı: Bakı şəhəri, Nəsimi rayonu, Əlisgəndər İsgəndərov küçəsi, ev 1, mənzil 15, qanuni təmsilçisi Mehdizadə Elçin Eldar oğlu olmuşdur
**Dəyişiklik:** 22.07.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Bizim şəhər" Sumqayıt sosial-inkişaf mərkəzi ictimai birliyi**

**Qeydiyyat tarixi:** 31.05.2005-ci il
**Qeydiyyat N-si:** 1105-Q4-1749
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Zeynalova Mətanət Sevindik qızı olmuşdur
**Dəyişiklik:** 23.07.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Bilik və Maarifçiliyin İnkişafı" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 31.01.2011-ci il
**Qeydiyyat N-si:** 1111-Q35-2926
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Xəlilov Mehman Sədrəddin oğlu olmuşdur
**Dəyişiklik:** 23.07.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Ana Kür" ekoloji problemlərin öyrənilməsinə kömək ictimai birliyi**

**Qeydiyyat tarixi:** 24.09.2010-cu il
**Qeydiyyat N-si:** 1110-Q33-2881
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Məlikov Rüstəm Sadiq oğlu olmuşdur
**Dəyişiklik:** 23.07.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Dünya Azərbaycanlılarının Vətənpərvərləri" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 30.10.2008-ci il
**Qeydiyyat N-si:** 1108-Q23-2597
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Həsənov Nəsimi Novruz oğlu olmuşdur
**Dəyişiklik:** 23.07.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Səbail Peşəkar Futbol Klubu" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 31.10.2016-cı il
**Qeydiyyat N-si:** 1116-Q56-3417
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Bayrampur Mirzə İbrahim oğlu olmuşdur
**Dəyişiklik:** 23.07.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Qeyri-maddi mədəni irsin təbliği" ictimai birliyi**

**Qeydiyyat tarixi:** 15.04.2020-ci il
**Qeydiyyat N-si:** 1120-Q72-3820
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Rüstəmbəyova Afət Məmməd qızı olmuşdur
**Dəyişiklik:** 24.07.2026-cı il tarixdə qeydiyyata alınıb

**"Xətai-21" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti**

**Qeydiyyat tarixi:** 08.01.2021-ci il
**Qeydiyyat N-si:** 1121-MM8-0195
Ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Mirəliyev Cabir Şükür oğlu olmuşdur
**Dəyişiklik:** 27.07.2026-cı il tarixdə qeydiyyata alınıb

**ELAN**

Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 18 mart 2025-ci il tarixli 640025-NQ15-162 nömrə ilə dövlət qeydiyyatına alınmış "Naxçıvan Regional Voleybol Mərkəzi" İctimai Birliyi ləğv edildiyini elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra 60 gün ərzində tələblərini aşağıda göndərilən ünvana bildirsinlər:
Naxçıvan şəhəri, Əziz Əliyev küçəsi 110

***

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin 30.10.2008-ci il tarixli 1108-Q23-2579 nömrə ilə dövlət qeydiyyatına alınmış "Azərbaycan Musiqisinin İnkişafı və Tədrisi" İctimai Birliyi ləğv olunduğunu elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra 60 gün ərzində təşkilata olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: Bakı şəhəri, İnşaatçılar prospekti, ev 28, mənzil 48.


| | | | |
|---|---|---|---|
| **Təsisçi:** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi **Buraxılışa məsul:** Rasim Həsənov | **Ünvan:** Bakı-AZ 1073. İnşaatçılar pr-ti, 1. Tel: 510-10-01 (10607) | Qəzetdə qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatlar dərc olunur. Qəzet ayda bir dəfə çıxır. | Reyestr N 769 |